

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 242 (21.143)

*19 dekabr 2014-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Dekabrın 18-də SSRİ Xalq artisti, dünya şöhrətli müğənni Müslüm Maqomayevin adını daşıyan gəminin istismara verilməsi mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Müslüm Maqomayevin həyat yoldaşı, SSRİ Xalq artisti Tamara Sinyavskaya mərasimdə iştirak ediblər.

Gəminin istismara verilməsini bildirən rəmzi lenti Tamara Sinyavskaya kəsdi.

Sonra Müslüm Maqomayevin məşhur "Azərbaycan" mahnısı səsləndirildi.

Daha sonra xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev gəmidə yaradılan şəraitlə tanış oldu.

Daha sonra Prezident İlham Əliyev "Lənkəran" yedək-təchizat gəmisində yaradılan şəraitlə tanış oldu.

Prezident İlham Əliyev Qara dənizdə Azərbaycan bayrağı altında üzən gəminin kapitanı ilə videobağlantı vasitəsilə söhbət etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Sosialist İnternasionalının baş katibi Luis Ayalanı qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Dekabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin II Plenumunun iştirakçıları ilə görüşmüşdür.

Qonaqları salamlayan Ali Məclisin Sədri Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin plenumunun ilk dəfə Naxçıvanda keçirildiyini bildirmiş, bu tədbirin muxtar respublikada memarlığın inkişafına və memarlar arasında qarşılıqlı əlaqələrin qurulmasına töhfə verəcəyinə əminliyini bildirərək demişdir: "Naxçıvanda memarlıq sənətinin qədim tarixi vardır. Memar Əcəmi Naxçıvani tərəfindən əsası qoyulan Naxçıvan memarlıq məktəbi müxtəlif inkişaf mərhələləri keçmiş, qədim memarlıq ənənələri qorunub saxlanılmışdır".

Ali Məclisin Sədri demişdir: "Ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə memarlığın inkişafına qayğı ilə yanaşmış, bu sahədə ardıcıl tədbirlər həyata keçirilmişdir. Dahi şəxsiyyətin ölkəmizə rəhbərliyi dövründə tikilən binalar milli memarlıq elementlərinin zənginliyi ilə seçilir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də memarlıq sənətinin inkişafına xüsusi diqqət yetirilir, ölkəmizin şəhərləri müasir arxitektura elementlərindən və qədim memarlıq ənənələrindən istifadə edilməklə qurulur".

Qeyd olunmuşdur ki, tarixən formalaşmış memarlıq ənənələri hər bir xalqın mədəni irsidir. Bu mədəni irsə sahiblik isə onların qorunub saxlanılmasından başlayır. Bu gün muxtar respublikada tarixi abidələrin bərpası diqqət mərkəzindədir. Son illər "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, Naxçıvanqala, Nuh Peyğəmbərin məzarüstü türbəsi, Xan sarayı, muxtar respublika ərazisindəki buzxanalar və onlarla digər tarixi abidələr bərpa olunmuşdur. Hazırda Gülüstan türbəsində və Əlincə qalasında bərpa işləri davam etdirilir.

Ali Məclisin Sədri qeyd etmişdir ki, mütəxəssis hazırlığı hər bir işin əsasını təşkil edir. Bu amil əsas götürülərək Naxçıvan Dövlət Universitetində Memarlıq fakültəsi yaradılmış, gənc memarların hazırlanmasına başlanılmışdır. Memar hazırlamaq çətin və uzun illər tələb edən bir prosesdir. Bunun üçün, ilk növbədə, ənənə olmalıdır. Ona görə də muxtar respublikada gənc memarlar hazırlanarkən varislik ənənələri qorunub saxlanılır. Eyni zamanda muxtar respublikada tikinti-quruculuq işləri həyata keçirilərkən əkinəyararlı torpaqlardan səmərəli istifadə, yaşayış məntəqələrində əhalinin rahatlığına xidmət edən binaların tikilməsi, kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması diqqət mərkəzində saxlanılır.

Görüşdə vurğulanmışdır ki, memarlıq çətin və incə bir sənətdir. Layihənin relyefə uyğunlaşdırılması bu sənətin ən vacib elementlərindən biridir. Muxtar respublikanın seysmik zonada yerləşməsi, özünəməxsus iqlim və relyef quruluşuna malik olması tikinti-quruculuq işləri həyata keçirilərkən layihələndirmənin düzgün aparılmasını, milli memarlıq elementlərinin tətbiqini zəruri edir. Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin II Plenumu bu məsələlərin müzakirəsinə də imkan verəcəkdir.

Ali Məclisin Sədri plenumun Azərbaycan Memarlar İttifaqı Naxçıvan təşkilatının formalaşmasına stimul verəcəyinə əminliyini bildirmiş, plenumun işinə uğurlar arzulamışdır.

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə demişdir ki, Azərbaycan milli memarlığının inkişafında Naxçıvan memarlıq məktəbinin xüsusi yeri vardır. Bu gün muxtar respublikada memarlığın inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin II Plenumunun Naxçıvanda keçirilməsi digər məsələlərlə yanaşı, son illər muxtar respublikada memarlıq sənətinin inkişafı sahəsində qazanılan nailiyyətlərin təbliği baxımından da mühüm əhəmiyyət




daşıyır. Elbay Qasımzadə plenumun keçirilməsi üçün yaradılan şəraitə və göstərilən diqqətə görə minnətdarlıq etmişdir.

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanov və digər görüş iştirakçıları da muxtar respublikada memarlığın inkişafı sahəsində görülən işləri qiymətləndirmişlər.

Sonda Ali Məclisin Sədri görüş iştirakçıları ilə birlikdə xatirə şəkli çəkdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin İkinci Plenumu keçirilmişdir

Dekabrın 18-də Naxçıvan şəhərində Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin İkinci Plenumu keçirilmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin İkinci Plenumunun iştirakçılarını və qonaqları salamlamış, təşkilatçılara təşəkkürünü bildirərək demişdir: "Memarlıq elə bir sahədir ki, özündə hər bir xalqın yaşayış tərzini, sənətkarlıq xüsusiyyətlərini, adət-ənənələrini, inanc və dəyərlərini yaşadır. Xalqımızın milli dəyərlərini əks etdirən Azərbaycan memarlıq məktəbi uzun bir dövr ərzində formalaşmışdır. Ölkəmizdə memarlığın inkişafı bir tərəfdən xalqımıza məxsus qədim mədəniyyət və sənətkarlıq ənənələri ilə bağlıdırsa, digər tərəfdən bu yurdun ilk insan məskənlərindən biri kimi təşəkkül tapması ilə əlaqədardır. Bu amili nəzərə alan ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Azərbaycan memarlıq sənətinin qədim və zəngin ənənələri vardır. Memarlarımızın yaratdığı daş salnamələr – şəhərlər, körpülər, abidələr xalqımızın mənəvi zənginliyini əks etdirməklə yanaşı, dünya mədəniyyəti tarixinin parlaq səhifələrini təşkil edir"***.

Ali Məclisin Sədri demişdir: "Naxçıvanda da memarlıq sənəti özünəməxsus inkişaf yolu keçmişdir. Bu ərazidəki antik, orta əsrlər və müasir dövr maddi-mədəniyyət nümunələri, tarixi abidələr memarlığın müxtəlif dövrlərdəki inkişafından xəbər verir. Hazırda muxtar respublika ərazisində 1200-dən artıq tarixi abidə pasportlaşdırılaraq qeydə alınmışdır ki, onların da 500-dən çoxu ölkə və dünya əhəmiyyətlidir. Naxçıvanda antik dövrdən inkişaf edən memarlıq sənəti on ikinci əsrdə özünün intibah mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin fəaliyyəti Naxçıvan memarlıq məktəbinin formalaşmasında mühüm rol oynamışdır. Təsadüfi deyil ki, tədqiqatçılar on ikinci əsri Azərbaycanda intibahın iki istiqaməti üzrə dəyərləndirirlər. Bunlardan biri ədəbiyyatdırsa, digəri memarlıqdır. Həmin dövrdə dahi Nizami Gəncəvinin yaradıcılığı Azərbaycan ədəbiyyatı sahəsində yeni bir mərhələ kimi qiymətləndirilmişdirsə, dahi Əcəmi Naxçıvani sənəti də memarlıq sahəsində mühüm bir istiqamət və məktəb kimi qəbul olunmuşdur. Əcəmi irsi mədəniyyət tariximizə əbədi həkk olunmuşdur. Onun sənəti nəinki Azərbaycan, ümumilikdə, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir. Əcəminin Naxçıvanda ucaltdığı Yusif Küseyir oğlu və Möminə xatın türbələri orta əsrlər xatirə memarlığının ən uğurlu nümunələridir".

Qeyd olunmuşdur ki, Naxçıvan memarlıq məktəbinin digər istiqamətlərindən biri də tarixən burada ucaldılmış qalalardır. Qalalar müdafiə tikililəri olmaqla yanaşı, həm də şəhərsalma mədəniyyətinin mühüm elementi kimi də böyük dəyərə malikdir. Bu gün muxtar respublika ərazisindəki Oğlanqala, Çalxanqala, Əlincə qalası, Naxçıvanqala kimi memarlıq abidələri təkcə xalqımızın zəngin və çoxəsrlik dövlətçilik ənənələrini yox, həm də qədim şəhərsalma mədəniyyətini günümüzə qədər gətirib çıxartmışdır.

Ali Məclisin Sədri demişdir: "Muxtar respublikada tarixi və memarlıq abidələri hərtərəfli qayğı ilə əhatə olunmuşdur. Onlar təkcə tarixilik baxımından tədqiq olunmur. Həm də müasirlik baxımından, memarlıq sənətinin yaşadılması baxımından öyrənilir. Bunun nəticəsidir ki, son illər aparılan genişmiqyaslı tikinti-quruculuq işlərində tarixiliklə müasirlik vəhdətdə götürülür,

*Ardı 2-ci səhifədə*





qədim memarlıq xüsusiyyətləri qorunub saxlanılır və müasir memarlıq elementləri ilə daha da zənginləşdirilir. Həyata keçirilən tikinti-quruculuq işlərində diqqət yetirilən ən vacib məsələlərdən biri də milliliyin qorunub saxlanılması, yerli torpaq, relyef və iqlim xüsusiyyətlərinin nəzərə alınmasıdır. Artıq Naxçıvanda müasir memarlığın ən yaxşı ənənələri ilə tarixi memarlığın sintezini özündə əks etdirən memarlıq məktəbi təşəkkül tapmışdır. Öz sələflərinin zəngin ənənələrini ləyaqətlə davam etdirən naxçıvanlı memarlar yeni axtarışları, tapıntıları və nailiyyətləri ilə bu gün də dəyərli sənət nümunələri yaradırlar.

Memarlıq sənəti daim inkişaf və yeniləşmə tələb edir. Naxçıvan memarlıq sənətinin ən möhtəşəm abidələrindən olan Möminə xatın türbəsinin baş tağında yazılmışdır ki, "Biz gedirik, əsər qalır yadigar". Bu fikirlər müasir dövrdə də aktualdır. Çünki tikilən hər bir bina, əslində, bu günümüzü gələcəyə çatdıran memarlıq abidəsi, memarlarımızın gələcək nəsillərə yadigarıdır. Ona görə də hər bir memar öz yaradıcılığında xalqımıza məxsus olan qədim tikinti və şəhərsalma mədəniyyətinə, milli memarlıq ənənələrinə üstünlük verməli, ölkəmizin müasir inkişafı ilə ayaqlaşan memarlıq nümunələri yaratmalıdır".

Ali Məclisin Sədri Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin növbəti plenumunun muxtar respublikada keçirilməsinə mühüm əhəmiyyət verdiyini vurğulamış, təşəbbüskarlara və təşkilatçılara təşəkkürünü bildirmiş, bu tədbirin Naxçıvan memarlıq məktəbi ilə yaxından tanış olmaq, memarlar arasında yaradıcılıq ünsiyyəti yaratmaq və təcrübə mübadiləsi aparmaq baxımından faydalı olacağına inamını ifadə etmiş, Azərbaycan memarlarına öz işlərində uğurlar arzulamışdır.

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə çıxış edərək demişdir ki, bu gün ölkəmizdə müasir memarlığın inkişafı ilə yanaşı, tarixi irsimizin qorunub saxlanılması və tanıdılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir, şəhər və qəsəbələrin arxitektura quruluşu və memarlıq siması daha da zənginləşdirilir. Bütün bunlar ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən memarlıq sənətinin inkişafına göstərilən qayğının daha bir ifadəsidir.




Qeyd olunmuşdur ki, Naxçıvan qədim Azərbaycan torpağıdır. Burada memarlıq sənətinin inkişafı bir çox istiqamətlərdə özünü göstərir. Bu gün Naxçıvan memarlıq məktəbi tarixi irsə və ənənələrə əsaslanaraq inkişaf etdirilir. Muxtar respublikanın şəhər, rayon və kəndlərində istifadəyə verilən yeni obyektlər müasir dövrün memarlıq abidələridir. Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin İkinci Plenumunun Naxçıvanda keçirilməsi memarlıq sənətinin inkişafına öz töhfəsini verəcək, müsbət nəticələr əldə olunacaqdır. Elbay Qasımzadə memarlığın inkişafına göstərilən diqqətə görə Azərbaycan memarları adından minnətdarlıq etmişdir.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun sektor müdiri Rahibə Əliyeva "Naxçıvanın tarixi memarlıq məktəbi – Əcəmi Naxçıvani", Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanov "Naxçıvan şəhərlərinin şəhərsalma perspektivləri haqqında" və Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov "Naxçıvan Muxtar Respublikası şəhərlərinin müasir inkişaf yolu" mövzularında çıxış etmişlər.

Sonra Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin İkinci Plenumunun qərarı oxunmuşdur.

Qərara əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Memarlar İttifaqının fəxri üzvü seçilmişdir.

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə Ali Məclisin Sədrinə Memarlar İttifaqının fəxri üzvlük diplomunu təqdim etmişdir.

Plenumun qərarında Azərbaycan Memarlar İttifaqının Naxçıvan Bölməsinin yaradılması da öz əksini tapmışdır. Həmçinin memarlıq sənətinin inkişafındakı xidmətlərinə görə naxçıvanlı memarlardan Cəmil Quliyev, Aysel Məmmədova və Əliqulu Sadiqov Azərbaycan Memarlar İttifaqının fəxri fərmanı ilə təltif olunmuş, Kamil Süleymanov, Qabil Cəfərov və Hicran Rüstəmov isə Azərbaycan Memarlar İttifaqına üzv seçilmişlər.

Tədbirdə Beynəlxalq Memarlar İttifaqı Assosiasiyasının keçirdiyi müsabiqənin qaliblərinə də diplomlar təqdim olunmuşdur.

Sonda plenum iştirakçıları "Qədim və müasir Naxçıvan memarlığı" adlı filmə baxmışlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Plenum iştirakçıları Heydər Əliyev Muzeyini ziyarət edib, Rəssamlar Birliyinin sərgi salonunda sərgiyə baxıblar



Dekabrın 18-də Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin II Plenumunun iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində olublar.

Muzeyə baxış zamanı qonaqlara məlumat verilib ki, muzeyin fondunda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən 4 min 500-dən çox eksponat toplanılıb. Muzeydəki eksponatların hər biri ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Azərbaycanın müasir dövlətçilik tarixi və ümummilli liderimizin siyasi irsinin tədqiqatçıları burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər. Burada kitabxana yaradılıb, ulu öndərimiz haqqında çəkilmiş filmləri seyr etmək üçün televizor və videomaqnitofon yerləşdirilib, kompüter dəstləri quraşdırılıb, muzeyin internet saytı yaradılıb. Muzeydə nümayiş etdirilən eksponatlar görkəmli dövlət xadimi Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Muzeydə zəngin fond materialları, orijinal sənədlər və eksponatlarla dahi rəhbərin mənalı həyatı, xalqımızın rifahı, xoş gələcəyi naminə fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri işıqlandırılıb, hər mərhələ, hər bir tarixi hadisə ilə bağlı dahi şəxsiyyətin fikirləri, seçilmiş müdrik, nəsihətamiz kəlamları ekspozisiyada öz əksini tapıb.

Sonra plenumun iştirakçıları Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə gəliblər. Onlar birliyin Bəhruz Kəngərli adına Sərgi Salonunda memarlıq abidələrinin fotoşəkillərindən, həmçinin naxçıvanlı rəssamların rəsm əsərlərindən ibarət sərgiyə baxıblar.

Qeyd edək ki, sərgidə Bakı şəhərindən 76, Naxçıvan Muxtar Respublikasından isə 32 adda yeni tikilən və tikilməsi nəzərdə tutulan müasir memarlıq üslubu ilə seçilən binaların şəkilləri, həmçinin 12 naxçıvanlı rəssamın 50-yə yaxın rəsm əsəri nümayiş olunub.

## AMEA Naxçıvan Bölməsi 2014-cü ili uğurla başa vurur

***Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsinin 2014-cü ildəki elmi və elmi-təşkilati fəaliyyəti uğurlu olub. Bölmənin elmi-tədqiqat institutlarının və bölmə tərkibində fəaliyyət göstərən digər qurumların hesabatlarının dinlənilməsi başa çatıb.***

Bu barədə qəzetimizə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev məlumat verib. Bölmə sədri bildirib ki, hesabat ilində elmi-tədqiqat müəssisələrində 6 elmi istiqamətdə 6 problemi əhatə edən və 7 mövzuya daxil olan 32 elmi-tədqiqat işinin 92 mərhələdə yerinə yetirilməsi nəzərdə tutulmuşdu. Hesabat ilinin sonunda isə planda nəzərdə tutulan 9 mərhələ qismən yerinə yetirilib, 83 mərhələdə elmi-tədqiqat işlərinin icrası tamamlanıb. Tədqiqatlar 21 şöbə və 8 laboratoriyada 2 nəfər akademik, 6 nəfər AMEA-nın müxbir üzvü, 4 nəfər elmlər doktoru, 48 nəfər fəlsəfə doktoru, 8 nəfər doktorant, 2 nəfər dissertant, 14 nəfər elmi işçi tərəfindən yerinə yetirilib.

Ayrı-ayrı institutların əldə etdiyi uğurlar haqqında məlumat verən bölmə sədri ümumiləşdirilmiş nəticələrdən də bəhs edib. Bildirib ki, 2014-cü ildə bölmə əməkdaşlarının 22 monoqrafiya, 468 məqalə və konfrans materialı, 3 tezisi olmaqla, 501 elmi əsəri nəşr edilib. Əsərlərdən 3 monoqrafiya, 1 kitab, 169 məqalə və konfrans materialı xaricdə çapdan çıxıb. Məqalələrdən 10-u impakt faktorlu jurnallarda nəşr olunub. Hesabat ilində əməkdaşların elmi istinad indeksi (SCİ) siyahısına daxil olan jurnallarda 10 elmi əsərinə, elmi istinad indeksi (SCİ) siyahısına daxil olmayan jurnallarda isə 43 elmi əsərinə istinadlar qeydə alınıb. Bölmə əməkdaşları 1 beynəlxalq, 2 respublika patenti və 2 müəlliflik şəhadətnaməsi alıblar. Bölmədə humanitar və ictimai, təbiət və texniki elmlər seriyalarından ibarət olan "Xəbərlər" jurnalının və "Axtarışlar" jurnalının 4 nömrəsi çapdan çıxıb.

Məlumatda o da bildirilib ki, hesabat ilində AMEA-nın Naxçıvan Bölməsi əməkdaşlarından 4 nəfər fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini müvəffəqiyyətlə müdafiə edib, 7 nəfərin isə fəlsəfə doktoru elmi dərəcəsi üzrə dissertasiyası müzakirədən keçərək müdafiəyə buraxılıb. Hesabat ilində bölmə əməkdaşlarından 1 nəfər AMEA-nın həqiqi üzvü, 3 nəfər AMEA-nın müxbir üzvü seçilib, 1 nəfər professor, 13 nəfər dosent elmi adı alıb. Əməkdaşlardan 8 nəfər doktoranturaya (3 elmi işçi elmlər doktoru hazırlığı üzrə, 5 elmi işçi fəlsəfə doktoru hazırlığı üzrə) qəbul olunub.

İldən-ilə bölmənin maddi-texniki bazasının dövlət qayğısı ilə gücləndirildiyini deyən akademik İsmayıl Hacıyev bölmədə bir sıra tədbirlərin həyata keçirildiyini qeyd edib. Bölmə sədrinin sözlərinə görə, 2014-cü ildə AMEA Naxçıvan Bölməsində 1 beynəlxalq, 20 respublika səviyyəli konfrans, "Heydər Əliyev lektoriyası"nın 6 məşğələsi, 40 seminar keçirilib.

"Naxçıvan tarixi" çoxcildliyinin I cildinin, "Naxçıvan əhalisinin etnogenezi tarixindən", "Heydər Əliyev irsi – əbədiyaşar təlim" monoqrafiyalarının, "Məmməd Araz: taleyi və sənəti", "Qədim Ordubad", Hüseyn Cavidin fars dilində çap olunan "Peyğəmbər" əsəri və "Qədim-yeni Naxçıvanım" kitablarının təqdimat mərasimləri keçirilib", – deyən İsmayıl Hacıyev həmçinin AMEA Naxçıvan Bölməsi ilə Polşa Elmlər Akademiyasının Krakov Bölməsi arasında "2014-2016-cı illər üzrə elm sahəsində əməkdaşlıq haqqında" protokol imzalandığını vurğulayıb.

**Xəbərlər şöbəsi**

# Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Miniatür kitab şöbəsi yaradılmışdır

***Dekabrın 18-də Naxçıvan Muxtar Respublika Kitabxanasında Miniatür kitab şöbəsinin təqdimatı olmuşdur.***





Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov çıxış edərək demişdir ki, bu gün Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında muxtar respublika həyatında əlamətdar hadisə münasibətilə toplaşmışıq. Muxtar respublikamızda bütün sahələr kimi, kitabxanalar da qayğı ilə əhatə olunub. Kitabxanalar yeni kitablarla zənginləşdirilir, onların maddi-texniki bazaları yaxşılaşdırılır, yeni elektron kitabxanalar yaradılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında" 2011-ci il 17 fevral, "Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" 2012-ci il 19 aprel tarixli sərəncamları, eləcə də Naxçıvan Muxtar Respublika Kitabxanasında, Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzində, Naxçıvan Dövlət Universitetində, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunda elektron kitabxanaların, həmçinin Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidmətinin yaradılması muxtar respublikada kitabxanalara, kitab mütaliəsinə göstərilən diqqət və qayğının əyani ifadəsidir.

Qeyd olunmuşdur ki, kitabxanaların maddi bazasının gücləndirilməsi, elektron kitabxanaların yaradılması milli-mədəni irsimizin qorunaraq gələcək nəsillərə çatdırılmasına, kitabxana xidmətinin forma və məzmunca yeniləşməsinə səbəb olmuşdur. Artıq yaradılmış elektron kataloq sistemi və internet saytı vasitəsilə kitabxana fondunun qeydiyyatını aparmaq, oxucuların statistikasını və maraq dairəsini müəyyənləşdirmək, ədəbiyyat fondunu oxucu sorğusuna uyğun komplektləşdirmək və yeniləşdirmək mümkündür.

150 minə yaxın kitab fondu olan Naxçıvan Muxtar Respublika Kitabxanasında 4 bölmə və 10 şöbə fəaliyyət göstərir. Bu gün burada daha bir şöbə yaradılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə yaradılan şöbə öz tərtibatı ilə fərqlənir. Otaqda miniatür kitablar üçün 11 şkaf qoyulmuş və bu şkaflarda işıqlandırma sistemi yaradılmışdır ki, bu da 1000-dən çox miniatür kitabın sərgilənməsinə imkan verəcəkdir. Burada elektron kartotekanın aparılması məqsədilə zəruri şərait yaradılmışdır. Bundan əlavə, otaqda miniatür kitabların asanlıqla oxunması üçün şriftləri verilən rejimdə böyüdən xüsusi aparat da qoyulmuşdur.

Bildirilmişdir ki, müasir dövrdə mədəniyyət nümunəsi kimi dəyərləndirilən miniatür kitablar geniş yayılıb və populyarlıq qazanıb. Bu nəşrlər təkcə məlumat və bilik vermək, mütərəqqi ideyalar yaymaq vəzifəsini daşımır. Həcmcə kiçik olsalar da, böyük dəyərə malik miniatür kitablar kütləvi satış üçün nəzərdə tutulmur, onlar xüsusi kitabxanalarda, muzeylərdə, sərgilərdə nümayiş etdirilir. İnanırıq ki, şöbədə toplanan kitablar tədqiqatçılar və oxucular üçün faydalı olacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov Miniatür kitab şöbəsinin ərsəyə gəlməsində Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Azərbaycan Miniatür Kitab Muzeyinin yaradıcısı Zərifə Salahovanın xüsusi xidmətləri olduğunu vurğulamış, buna görə də Zərifə xanıma muxtar respublikanın bütün oxucuları adından minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev qeyd etmişdir ki, muxtar respublikada başqa sahələr kimi, mədəni həyatımız da intibah dövrünü yaşayır. Qədim diyarımızın tarixi keçmişi ilə bağlı kitabların nəşr olunması, Naxçıvanda beynəlxalq səviyyəli elmi konfransların, simpoziumların keçirilməsi, görkəmli şəxsiyyətlərin yubileylərinin qeyd edilməsi, şair və yazıçılarımızın, elm, maarif xadimlərinin ev-muzeylərinin yaradılması bir daha təsdiq edir ki, Naxçıvan Muxtar Respublikası bu gün öz inkişafının yeni müstəvisinə qədəm qoymuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Miniatür kitab şöbəsinin yaradılması həyata keçirilən tədbirlərin davamı kimi hamımızda böyük qürur və sevinc hissi yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi – Prezidentin köməkçisi Dilarə Seyidzadə çıxışında bildirmişdir ki, Naxçıvan çox müqəddəs torpaqdır. 1969-cu ildən başlayaraq Naxçıvanda da böyük işlər görülməyə başlanılmışdır. Bu gün hər bir naxçıvanlı ulu öndərin yolunu böyük məhəbbətlə davam etdirir. Bu torpağı qoruyan da, xilas edən də ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Heç şübhəsiz ki, Naxçıvanın bu səviyyəyə gətirilməsi Heydər Əliyev siyasətinə sədaqətin ifadəsidir.

"Azərbaycanda miniatür kitab nəşri, belə kitabların toplanılması Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Miniatür Kitab Muzeyinin direktoru Zərifə Salahovanın adı ilə bağlıdır", – deyən Dilarə Seyidzadə ulu öndər Heydər Əliyevin Zərifə Salahovanın miniatür kitab işi sahəsindəki fəaliyyətinə yüksək qiymət verdiyini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Dilarə Seyidzadə çıxışının sonunda Naxçıvanda mədəniyyətin inkişafına göstərdiyi böyük qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını bildirmişdir.

Azərbaycan Miniatür Kitab Muzeyinin direktoru, "Kitab" Cəmiyyətinin sədri Zərifə Salahova çıxış edərək vurğulamışdır ki, bu gün miniatür kitablar dünyanın müxtəlif ölkələrində çap olunub yayılsa da, ilk dəfə Miniatür Kitab Muzeyi Azərbaycanda yaradılmışdır. Muzey ümummilli lider Heydər Əliyevin qayğısı ilə 2002-ci il aprel ayının 23-də Bakıda açılmışdır. Həmin muzeydə dünyanın 60-dan artıq ölkəsində çap olunan 6 minə qədər miniatür kitab toplanmışdır. Sevindirici haldır ki, həmin kitablar içərisində ölkə nəşriyyatlarının çap etdiyi miniatür kitablar da özünə yer almışdır.

Zərifə Salahova bildirmişdir ki, o, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə miniatür kitab hazırlamış, bu il sentyabr ayının 29-da Naxçıvanda həmin kitabın təqdimat mərasimində iştirak etmişdir. Naxçıvanlıların elmə, mədəniyyətə böyük maraq göstərdiklərini vurğulayan Zərifə Salahova Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu qədim diyarda həyata keçirdiyi tədbirləri yüksək dəyərləndirmiş, onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmişdir.

Sonra Miniatür kitab şöbəsi ilə tanışlıq olmuşdur.

**"Şərq qapısı"**

# Yeni mənziliniz mübarək!!!

## *İnsana qayğının daha bir ifadəsi*



***Şərur şəhərinin Nəriman Nərimanov küçəsindəki 7 nömrəli yaşayış binasının sakinləri mənzillərinin yenidən qurularaq istifadəyə verilməsinin sevincini hələ də yaşamaqdadırlar. Elə rayona budəfəki səfərimizdə də məqsəd həmin ailələrlə görüşmək, yeni evin bəxş etdiyi sevincin təəssüratlarını öyrənmək idi.***





Şərur şəhərinə çatmağımıza az qalmış şəhərin uzun illər bundan əvvəlki miskin görkəmi yadıma düşdü. Rayonun küskün mənzərəsini yaxşı xatırlayıram. Əslən bu rayondan olduğum üçün yaşımın bu vədəsinə kimi hər həftə, hər ay Şərura getmişəm. Ona görə də Şərurun dünəni və bu gününü müqayisə etmək mənim üçün heç də çətin deyil. Nə gizlədim, ötən əsrin 90-cı illərinin əvvəllərində Şərurun şəhər olmağı yalnız adında idi. Nə yolları yol idi, nə də küçələri. Piyadalar üçün gediş-gəliş yollarını zəbt edən primitiv köşkləri, yöndəmsiz, köhnə tikililəri rayon sakinləri kimi, mən də yaxşı xatırlayıram. Kəskin şaxtalı-çovğunlu qışın gəlişi qayğıları daha da artırırdı. Uzun qış gecələri daha dözülməz olurdu. Həmin saatlarda şəhər zülmətə bürünürdü...

Bəs indi? Bu gün muxtar respublikamızın digər bölgələri kimi, oğuz-türk yurdu da regionun abad və yaraşıqlı yaşayış məskənlərindən birinə çevrilib. Tikilən, ərsəyə gətirilən obyektlərin hamısı 19 ilin ərməğanlarıdır. Ancaq o da mütləq etiraf olunmalıdır və hər bir şərurlu da təsdiq edər ki, qurulanlar, ərsəyə gətirilənlər, insanların ixtiyarına verilənlər elə-belə başa gəlməyib. Zəhmət çəkilib, yollar axtarılıb. Çəkilən zəhmətin bəhrəsi isə göz qabağındadır. Hər dəfə Şərur şəhərinə üz tutanda burada müxtəliftəyinatlı obyektlərin tikintisinin şahidi oluruq. Yeni ucaldılan yaraşıqlı tikililər, müasir görkəmə salınan binalar, parklar göz oxşayır, insan qəlbini riqqətə gətirir. Əlbəttə, bütün bunlar sadə görüntü kimi yozulmamalıdır. Bütövlükdə muxtar respublikamıza xas olan quruculuq, abadlıq ab-havasının bu rayonda yaratdığı füsunkarlığın arxasında böyük zəhmət dayanır.

Bu düşüncələr içərisində Şərur şəhərinə çatırıq. Üz tutduğumuz ünvandakı mənzillərdən birinin qapısını döyürük. Öyrənirik ki, bu ailə Bağırovlar ailəsidir. Gəlişimizin məqsədini bildiririk. Hələ də sevinc içərisində olan ailə başçısı Sərdar Bağırov bizi içəri dəvət edir. Mənzilə daxil oluruq. Masa arxasında söhbətə başlayırıq. Sərdar Bağırovun dediklərindən:

– 50 ilə yaxındır ki, yaşadığımız mənzilin məişət şəraiti heç də ürəkaçan deyildi. Öz daxili imkanlarımız hesabına nəsə eləsək də, alınmırdı. Çünki vahid kommunal sistem yox idi. Bura təmir olunandan sonra binaya girəndə, səmimi deyim ki, öz evlərimizi tanıya bilmədik. Ən müasir şərait yaradılıb. Hətta mənim mənzilimə bir otaq da artırılıb, mənzil sahəsi böyüdülüb. İndi evimiz geniş və işıqlıdır. Kim istəməz ki, belə rahat bir mənzildə yaşasın? Mən binanın sakinləri adından muxtar respublika rəhbərinə bir daha minnətdarlığımı bildirirəm.

Evin xanımı İfadə xanım söhbətimizə qoşulur:

– Hər bir xanım istəyər ki, mətbəxi geniş olsun. İnanın, əvvəllər əlim iş tutmurdu ki, iş görəm. Əvvəllər evimizin mətbəxi yox idi. İndi mətbəxdən çıxmıram. Ləziz yeməklər bişirirəm. Oğlum da bu geniş otaqlarda doyunca oynayır. Mənzilimiz ailəmizə sanki bir istilik bəxş edib. Təkcə bizə yox, bu binada yaşayan bütün ailələrə.

Bağırovlar ailəsində söhbətimizi bitirir, onlara bu mənzildə xoş günlər arzulayır və həyətə çıxıram. Burada binanın sakinlərindən bir neçəsi toplaşıb söhbət edirlər. Mən də gözaydınlığı verib onlara qoşuluram. Sakinlərin hamısı yaradılan bu şəraitə görə sevinc hissi yaşadıqlarını, bu sevinci dövlətimizin insan amilinə göstərdiyi qayğının ifadəsi kimi dəyərləndirirlər.

Qeyd edək ki, bu sevinci ötən ay Naxçıvan şəhərinin Atatürk küçəsindəki 5 nömrəli yaşayış binasının sakinləri də yaşayıblar. Belə ki, 25 mənzilli bu bina təmirdən sonra noyabrın 14-də sakinlərin istifadəsinə verilib. Binanın həyətində abadlıq işləri aparılıb, hər tərəfdə təmizlik və gözəllik hökm sürür. Bina şəhərimizə ayrı bir gözəllik qatıb. Yazımızı hazırlayarkən həmin binanın sakinləri ilə də həmsöhbət oldum. Bina sakinlərindən Ramazan Abbasov deyir ki, binamız köhnə tikililərdən idi. Doğrudur, binada yaşamaq üçün zəruri ehtiyaclar – təbii qaz, elektrik enerjisi daimi olsa da, çətinliklərimiz az deyildi. Həmişə şəhərimizdəki əksər yaşayış binalarının müasir formada yenilənməsini gördükcə çox sevinir, fikirləşirdik ki, nə zamansa bu müasirlikdən bizim binaya da pay düşəcək. Bu ilin əvvəllərində yaşadığımız binada əsaslı yenidənqurma işlərinə başlandı. Bina müasir tələblərə uyğun qurularaq sakinlərin istifadəsinə verildi. Mənzillərimizin hər birinin sahəsi 30 kvadratmetr artırıldı, yaşayış üçün hərtərəfli şərait yaradıldı.

Bəli, mənzil insan həyatında məişət şəraitinin əsas göstəricisidir. Muxtar respublikada tikinti sektorunun əsas istiqamətlərindən birini də elə əhalinin yeni mənzillərə olan tələbatının ödənilməsi təşkil edir. Əgər 19 il bundan əvvəl hər hansı bir tikinti təşkilatı ildə cəmi bir obyektdə inşaat işləri aparmaq imkanına malik idisə, bu gün dövlət qayğısından bəhrələnən və muxtar respublikanın çiçəklənməsində böyük rolu olan tikinti şirkətləri onlarla yaşayış binası tikmək imkanına malikdirlər.

*Qeyd edək ki, ötən dövr ərzində Naxçıvan şəhərində və rayon mərkəzlərində yüzlərlə yaşayış binası əsaslı təmir olunub, mənzillərin sahəsi genişləndirilib, binaların əksəriyyətinin təməli möhkəmləndirilərək əlavə mərtəbələr artırılıb, binalar müasir kommunikasiya xətləri ilə təmin edilib. Burada bir əsas məqsəd xüsusi vurğulanmalıdır: insanların yaşayış tərzini, onların qurub-yaratmaq əzmini yüksəltmək, insanları layiq olduqları səviyyədə mənzil şəraiti ilə təmin etmək.*

**Sara ƏZİMOVA**

*23 dekabr bələdiyyə seçkiləri günüdür*

## Naxçıvan şəhərindəki seçki məntəqələri bələdiyyə seçkilərinə tam hazırdır

***Bir neçə gündən sonra – dekabrın 23-də Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında özünüidarəni həyata keçirən bələdiyyə orqanlarına növbəti seçkilər günüdür. Bələdiyyələr vətəndaş təşəbbüskarlığının bərqərar edilməsinin mühüm idarəetmə forması olub, əhalinin yerli problemlərinin həllini təmin edən müstəqil idarəetmə qurumudur. Bu qurum mənsub olduğu dövlətin iqtisadi inkişaf strategiyasına uyğun olaraq, xalqın rifahının yaxşılaşdırılması istiqamətində zəruri fəaliyyət həyata keçirir.***

Ölkəmizdə yerli özünüidarənin mövcud olduğu 15 il ərzində bələdiyyələr mühüm inkişaf yolu keçib, bu sahədə təcrübələrini ildən-ilə artırıblar. Bu gün muxtar respublikamızda bələdiyyələrin fəaliyyəti üçün lazımi şərait yaradılıb, bu özünüidarəetmə orqanlarının əksəriyyəti üçün müasir standartlara cavab verən yeni inzibati binalarda müvafiq otaqlar ayrılıb. Muxtar respublikamızda bələdiyyələrin işinin təşkili, onların fəaliyyətinin əlaqələndirilməsi istiqamətində də müəyyən tədbirlər həyata keçirilib.

Qeyd edək ki, bələdiyyələrin səlahiyyət müddəti bir neçə gündən sonra başa çatır. Dekabr ayının 23-də əhali yerli özünüidarəetməyə seçkilərdə iştirak edəcək.

Bəs bu gün seçki məntəqələrinin seçkiyə hazırlığı hansı səviyyədədir? Bu günlərdə 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsində olduq. Dairə Seçki Komissiyasının sədri Cahangir Seyidov bizimlə söhbətində bildirdi ki, 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsi 37 seçki məntəqəsini özündə birləşdirir. Dairə üzrə ümumi seçici sayı 43 min 808 nəfərdir. Bu seçicilərdən 1006 nəfəri 18 yaşı tamam olan gənclərdir. Komissiya sədrinin məlumatına görə, Naxçıvan və Əliabad bələdiyyələri üçün təşkil olunmuş seçki məntəqələrinin böyük əksəriyyəti yeni tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuş inzibati binalarda yerləşir. 4-10, 4-12, 4-15, 4-17 və 4-28 saylı seçki məntəqələrində seçkiləri izləmək üçün müşahidə kameraları quraşdırılıb. Bundan əlavə, 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsində aidiyyəti seçki məntəqələri üzrə təyin olunmuş seçki komissiyaları üçün maarifləndirici tədbirlər davam etdirilir, eyni zamanda Dairə Seçki Komissiyasının üzvləri mütəmadi olaraq yekun hazırlıqlarla əlaqədar seçki məntəqələrində olur, hazırlıqları diqqətdə saxlayırlar. Elə biz də bu hazırlıqların vəziyyətini müşahidə etmək üçün Naxçıvan şəhərində yerləşən seçki məntəqələrindən bir neçəsində olduq.

İlk ünvanımız şəhərimizdəki 7 saylı uşaq bağçasında təşkil olunmuş 4-30 saylı seçki məntəqəsi oldu. Məntəqə seçki komissiyasının sədri Namiq Novruzovun verdiyi məlumata görə, seçkilərin keçirilməsi üçün burada iki otaq ayrılıb. Təlimatlara uyğun olaraq, məntəqədə seçici siyahısı, təqvim planı yerləşdirilib, masaların üzərinə yaddaş kitabçaları və digər tematik materiallar qoyulub, sənədlərin saxlanılması üçün seyf qutu ayrılıb. Bu məntəqə üzrə 885 seçici səs verəcək ki, bunlardan 15 nəfəri 18 yaşı tamam olan və ilk dəfə səs verən seçicilərdir.

4-10 saylı seçki məntəqəsində isə seçkilər günü 1030 vətəndaşın səs verəcəyi gözlənilir. Məntəqə seçki komissiyasının sədri Pərvin Quliyev bildirir ki, bu seçicilərdən 17 nəfəri 18 yaşı bu il tamam olan seçicilərdir. Artıq bir neçə gündür ki, bütün bildirişlərin vətəndaşlara paylanılması başa çatdırılıb. Hazırlıq prosesi yüksək səviyyədə aparılıb. Məntəqəmizdə seçkiləri izləmək üçün müşahidə kamerası da mövcuddur.

4-20 saylı seçki məntəqəsinin sədri Emin Əliyev isə 5 nömrəli uşaq bağçasında yerləşən bu məntəqə üzrə 1485 seçicinin qeydə alındığını bildirir. Digər məntəqələrdə olduğu kimi, burada da təşkilati işlərin yüksək səviyyədə aparıldığını müşahidə etdik. Bu məntəqə üzrə də seçicilərə bildirişlərin paylanılması başa çatdırılıb. Komissiya sədrinin bildirdiyinə görə, əvvəlki dövrdən fərqli olaraq, indi vətəndaşların seçkilərdə iştirakı artıb. Belə ki, artıq bir neçə gündür, seçicilər məntəqəyə gəlir, adlarının seçici siyahısında olub-olmadığını dəqiqləşdirir, onları maraqlandıran suallara cavab alırlar.

Qeyd edək ki, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yerləşən 4-9 saylı və Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbdə yerləşən 4-23 saylı seçki məntəqələrində də seçkilərə hazırlığın yüksək səviyyədə həyata keçirildiyi bəlli oldu. Öyrənirik ki, 4-9 saylı məntəqədə 980 seçicinin, 4-23 saylı məntəqədə isə 989 seçicinin iştirak edəcəyi dəqiqləşdirilib və seçicilərin adları seçici siyahısında öz əksini tapıb. Adıçəkilən hər iki məntəqədə seçkilərin müasir tələblərə uyğun şəkildə keçirilməsi üçün bütün zəruri tədbirlər həyata keçirilib. Bir sözlə, seçkilərin şəffaf keçirilməsi üçün bütün hazırlıqlar digər məntəqələrdə olduğu kimi, bu məntəqələrdə də lazımi səviyyədə aparılaraq başa çatdırılıb.

**Səbuhi HƏSƏNOV**

## Təcrübəmiz və mükəmməl qanunvericilik bazamız demokratik seçki keçirməyə imkan verir

***Bu il dekabr ayının 23-də ölkəmizdə dördüncü dəfə keçiriləcək bələdiyyə seçkiləri xalqımızın tarixində, onun həyatında önəmli hadisədir. Seçicilərin məntəqələrə gələrək bu mühüm kampaniyada fəal iştirak etməsi seçkilərə hərtərəfli hazırlıqdan çox asılıdır.***

Bu baxımdan ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da dairə və məntəqə seçki komissiyaları mühüm mərhələ çərçivəsində zəruri texniki-təşkilati işləri həyata keçirir. Prezident, parlament və bələdiyyə seçkilərini demokratik şəkildə keçirmək üçün zəruri olan təcrübə, mükəmməl qanunvericilik bazası növbəti seçkilərin yüksək səviyyədə təşkilinə imkan verir. Seçkilərə hazırlığın vəziyyəti ilə tanış olmaq üçün 3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsində olduq. Dairə Babək qəsəbəsinin Heydər Əliyev prospektində tikilib istifadəyə verilmiş və hər cür zəruri avadanlıqla təchiz edilmiş binada fəaliyyət göstərir.

Dairə Seçki Komissiyasının sədri Zahid Ələkbərov söhbət zamanı bildirdi ki, dairəyə 46 seçki məntəqəsi daxildir. Bunlardan 21-i Babək, 18-i Kəngərli rayonlarının, 7-si Naxçıvan şəhərinin payına düşür. Babək rayonunda 15 min 393 nəfər, Kəngərli rayonunda 19 min 340, Naxçıvan şəhərində 6612 seçici qeydə alınıb. Dairə üzrə ilk dəfə səs verənlərin sayı 965 nəfərdir. Onların 353 nəfəri Babək, 470 nəfəri Kəngərli rayonlarından, 142 nəfəri isə Naxçıvan şəhərindəndir.

3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsi üzrə Babək rayonunda 15, Kəngərlidə 10, Naxçıvan şəhərində 3 bələdiyyə var.

"Builki bələdiyyə seçkilərində dairənin əhatə etdiyi məntəqələr üzrə 41 min 345 nəfər seçicinin səs verməsi müəyyənləşdirilib. Təbii ki, bu rəqəm dəyişə də bilər. Çünki seçki keçirilən günə qədər seçici siyahılarının dəqiqləşdirilməsi işi ciddi nəzarətdə saxlanılır. Həmçinin seçki günü də adı siyahıya düşməyən seçici məntəqə seçki komissiyasına müraciət etməklə bu məsələnin həllinə nail ola bilər", – deyən Zahid Ələkbərov onu da vurğuladı ki, Babək rayonu üzrə 186, Kəngərli rayonu üzrə 134, Naxçıvan şəhəri üzrə 40 olmaqla, ümumilikdə, 360 namizəd qeydə alınıb. Onlardan 248-i daha çox səs toplamalıdır.

Zahid Ələkbərov bütün seçki məntəqələrində rabitə sisteminin qurulduğunu, məntəqələrin texniki vasitələrlə tam təmin olunduğunu da qeyd etdi. Bildirdi ki, Mərkəzi Seçki Komissiyası tərəfindən göndərilən təlimat, qayda, izahlar və yaddaş kitabçaları məntəqə seçki komissiyalarına paylanılıb və komissiya üzvlərinə həmin qaydalarla yaxından tanış olmaq imkanları yaradılıb. Bununla yanaşı, məntəqə seçki komissiyalarının üzvləri üçün seminar-treninqlər keçirilib, maarifləndirmə işləri aparılıb, onları maraqlandıran suallar ətraflı cavablandırılıb.

Onu da qeyd edək ki, dairənin ərazisində aparılan ciddi hazırlıq işləri də diqqəti cəlb edir. Artıq əhalinin sıx olduğu yerlərdə xüsusi lövhələr quraşdırılıb. Həmin lövhələrdə bələdiyyə üzvlüyünə namizədliyi qeydə alınanların təşviqat materialları yerləşdirilib.

Dairənin məntəqələri seçkilərə tam hazırdır. Biz Babək rayonunun 3-20 saylı Məmmədrza Dizə seçki məntəqəsində hazırlığın yaxşı səviyyədə getdiyinin şahidi olduq. Məntəqə seçki komissiyasının sədri Rəhim Əliyev bildirdi ki, kənd tam orta məktəbində yerləşən məntəqədə təchizat nümunəvi, komissiya üzvlərinin hazırlığı yüksək tələblər səviyyəsindədir.

Bələdiyyə seçkilərinə hazırlıq işləri ilə yaxından tanış olmaq üçün 3-19 saylı Kültəpə seçki məntəqəsində də müşahidələr apardıq. Məntəqə seçki komissiyasının sədri Həsən Hacıyev bildirdi ki, builki bələdiyyə seçkilərində 30 nəfəri ilk dəfə olmaqla, ümumilikdə, 1051 seçici səs verəcək. Bu məntəqə də zəruri seçki avadanlıqları ilə təchiz olunub. İlk dəfə səs verəcək seçicilərlə söhbətlər aparılıb.

3-35 saylı Şıxmahmud seçki məntəqəsi kənd musiqi məktəbinin binasında yerləşir. Dəqiqləşdirilmiş son siyahıya əsasən, səs verənlərin sayı 1156 nəfərdir. Komissiya üzvlərinin təlimatlandırılmasından, müntəzəm təşkil olunan seminar-treninqlərdən, söhbət və mühazirələrdən tutmuş texniki vasitə və avadanlıqlara qədər hər şey vaxtında və tələb olunan səviyyədə icra edilib.

Məntəqə seçki komissiyasının sədri Heydər Quliyev dedi:

– Bu günlərdə məntəqə üzrə ilk dəfə səs verənlərlə görüş keçirmişik. Onları maraqlandıran suallar cavablandırılıb, izahat-maarifləndirmə işləri aparılıb. Çalışırıq ki, işin təşkili ilə bağlı heç bir yaddan çıxan məsələ qalmasın, hamı öz hüquq və vəzifələrini dəqiq bilsin.

Bəli, bələdiyyələr sayca dördüncü olacaq bu seçkilərə artıq 15 illik təcrübə ilə gedir. İnanırıq ki, bu seçkilər də 3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsinin əhatə etdiyi məntəqələrdə mütəşəkkilliklə keçiriləcək.

**Muxtar MƏMMƏDOV**

***Dekabrın 17-də Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılmasının ildönümü münasibətilə Şahbuz rayonundakı "N" hərbi hissənin ön xətdəki bölmələrindən birində tədbir keçirilib.***

## Əlahiddə Ümumqoşun Ordusunun yaradılmasının ildönümü qeyd olunub



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov tədbiri giriş sözü ilə açaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 18 dekabr 2013-cü il tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin daha da artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılıb. Ötən bir il ərzində bu ordunun maddi-texniki bazası daha da möhkəmləndirilib, qoşun birləşmələrinin döyüş qabiliyyəti artırılıb.

Qeyd olunub ki, bu gün Əlahiddə Ümumqoşun Ordusunun hissə və bölmələrində xidmət edən şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədə olduğundan verilən bütün tapşırıqların öhdəsindən layiqincə gəlinir. Ötən müddətdə həyata keçirilən məqsədyönlü tədbirlər bunu bir daha təsdiq edir.

"N" hərbi hissənin zabiti, mayor Namiq İsgəndərov çıxış edərək orduya göstərilən dövlət qayğısından danışıb, şəxsi heyətin qarşıya qoyulan tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyini nəzərə çatdırıb.

Əsgərlərdən Ülvi Hadıyev və Azər Bayramov Vətənin müdafiəsinə hər zaman hazır olduqlarını bildirib, Azərbaycan Ordusunda xidmət etdikləri üçün böyük qürur hissi duyduqlarını qeyd ediblər.

Tədbirin bədii hissəsində Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının və Naxçıvan Dövlət Filarmoniyasının yaradıcı kollektivlərinin çıxışları əsgərlər tərəfindən alqışlarla qarşılanıb.

**Xəbərlər şöbəsi**

***Xəbər verdiyimiz kimi, dekabrın 5-də Culfa Rayon Mədəniyyət Evində "İstedadlar sorağında" adlı bədii özfəaliyyət kollektivlərinin baxış-müsabiqəsinə start verilib.***

## "İstedadlar sorağında" müsabiqəsinin II turu başa çatıb



Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş müsabiqənin I turu 5-9 dekabr tarixlərində zonalar üzrə başa çatdıqdan sonra dekabrın 17-də Naxçıvan Dövlət Filarmoniyasında baxış-müsabiqənin II turu olub. İkinci turda I turda fərqlənmiş özfəaliyyət kollektivləri və tək ifaçılar öz istedadlarını nümayiş etdiriblər. Yaş məhdudiyyəti olmayan müsabiqədə ifa tərzi və səhnə mədəniyyəti ilə seçilən özfəaliyyət kollektivləri və tək ifaçıların çıxışları maraqla qarşılanıb.

Baxış-müsabiqənin diqqəti cəlb edən cəhətlərindən biri bədii özfəaliyyət kollektivlərinin və tək ifaçıların çıxışlarının rəngarəng olması idi. Müsabiqədə instrumental ifaçılıq, mahnı və muğam ifaçılığı üzrə çıxışlar başa çatdıqdan sonra səhnə folklor kollektivlərinə verildi. Kəngərli, Şərur, Şahbuz rayonlarının folklor kollektivlərinin ifaları alqışlarla qarşılandı.

Baxış-müsabiqədə Azərbaycan milli musiqi alətləri – zurna, balaban, nağarada ifa olunan musiqi nömrələri maraqla qarşılandı. Babək rayonundan olan Firdovsi Səfərovun nəlbəkilərdə ifası hamının marağına səbəb oldu.

Baxış-müsabiqədə Səriyyə Rəhimlinin, Gülnar Qasımovanın, Aysu Məmmədovanın, Vüsalə İsmayılovanın rəqs ifaları muxtar respublikada qədim rəqs sənətinin yaşadılmasına olan marağın ifadəsi idi. Zeynəb Aslanlı isə baxış-müsabiqəyə bədii qiraətlə qatılmışdı.

Tədbirdə fasilə zamanı münsiflər heyəti əl işləri ilə tanış oldular. Culfa, Ordubad, Babək, Kəngərli rayonlarından gətirilmiş müxtəlif əl işləri – mis üzərində döymə, toxuma, maket və sair diqqətəlayiq idi. Culfa rayonundan daha çox iştirakçının əl işləri ilə burada təmsil olunması da nəzərdən qaçmadı.

Baxış-müsabiqənin sonunda münsiflər heyəti II turda fərqlənənləri elan etdi.

Qeyd edək ki, bu gün Naxçıvan Dövlət Filarmoniyasında baxış-müsabiqədə fərqlənənlərin yekun tədbiri olacaq. Əl işləri, instrumental ifaçılıq, mahnı ifaçılığı, rəqs nominasiyaları üzrə fərqlənən müsabiqə iştirakçıları yekun tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin diplom və fəxri fərmanları ilə təltif olunacaqlar.

**Əli RZAYEV**

**İtmişdir**

Mürsəlova Könül Yusif qızının adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 1055